

Su təchizatı və tullantı su şəbəkələrinə qoşulma sahəsini, onun funksiya və xüsusiyyətlərini əks etdirən

# MƏLUMAT KİTABÇASI

Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın
"Su şəbəkəsinə qoşulma" işçi qrupuna rəhbərliyi
**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi** həyata keçirir

## “Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması Qaydası”nın

## Təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1112-VIQD nömrəli Qanununun tətbiqi və “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 26 yanvar tarixli 266 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 may tarixli 52 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

“Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması Qaydası” təsdiq edilsin.

Müəyyən edilsin ki, Kommunal Xidmətlər Vahid İnformasiya Sistemi fəaliyyətə başlayanadək “Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sistemlərinə qoşulması Qaydası”nda həmin sistem vasitəsilə həyata keçirilməsi nəzərdə tutulan prosedurlar Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən yaradılmış informasiya sistemi, habelə birbaşa, poçt və ya elektron poçt vasitəsilə həyata keçirilir.

“İstehlakçıların su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması üçün texniki şərtlərin verilməsi və qoşulması Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 13 avqust tarixli 275 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 8, maddə 1009 (Cild I) ləğv edilsin.

Bu Qərar “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1112-VIQD nömrəli Qanununun tətbiqi və “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 26 yanvar tarixli 266 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 may tarixli 52 nömrəli Fərmanının 3-cü hissəsində nəzərdə tutulmuş tariflərlə eyni gündə qüvvəyə minir.

**Əli Əsədov**

Azərbaycan Respublikasının Baş naziri
Bakı şəhəri, 20 iyun 2024-cü il

## Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulma

## Qaydası

### Ümumi müddəalar

Bu Qayda "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinin 5-ci hissəsinə uyğun olaraq hazırlanıb. (https://e-qanun.az/framework/74)

Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sistemlərinə qoşulması üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə su təchizatı və tullantı sularının axıdılması sistemlərinə qoşulması üzrə proseduru və tələbləri müəyyən edir.

### Hansı obyektlər mövcud şəbəkəyə qoşula bilər?

- məişət abonentləri;
- sutka ərzində tələb olunan buraxılış həcmi 100 m3 və bu həcmə qədər olan hazır və ya inşa ediləcək tikintilər;
- sutka ərzində tələb olunan buraxılış həcmi 100 m3 çox olan hazır və ya inşa ediləcək tikintilər;

### Əsas anlayışlar

**Su təchizatı və tullantı sularının axıdılması sistemləri (STTSAS)**
*(bundan sonra Şəbəkə adlandırılacaq):*

- suyu mənbədən götürən, təmizləyən, istehlakçılara çatdıran qurğu və ya qurğular;
- magistral və paylayıcı su kəmərləri şəbəkəsi;
- tullantı sularını qəbul və nəql edən, təmizləyən, kənarlaşdıran şəbəkə və qurğular kompleksi;

### Texniki şərtlər:

- tikinti obyektlərinin şəbəkələrə qoşulması məqsədilə layihə sənədlərinin hazırlanmasına əsas verən, su təchizatının və kanalizasiya xidmətlərinin təmin edilməsi ilə bağlı mühəndis-texniki parametrləri özündə əks etdirən sənəd.

**Su təchizatı və kanalizasiya müəssisələri (STKM)**
(bundan sonra Müəssisə adlandırılacaq):

- mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, müəyyən ərazi hüdudlarında su təchizatının və tullantı sularının axıdılmasını təmin edən hüquqi şəxs;

## Sifarişçi:

- Şəbəkələrə qoşulması nəzərdə tutulan tikinti obyektinə, onun yerləşdiyi və yerləşəcəyi torpaq sahəsinə mülkiyyət və digər əşya hüquqları əsasında sahiblik edən şəxs;

## Tikinti obyektləri:

- tikinti prosesində yaradılan, yaradılmış bina və ya qurğular;

## Xidmət nöqtələri

- “ASAN Kommunal” mərkəzləri;
- “ASAN Xidmət” mərkəzləri;
- elektron su (e-su.az) və elektron hökümət portalları (e-gov.az)
- kiçik və orta biznes evləri (KOB evləri);

## Qoşulma nöqtəsi

- tikinti obyektinin şəbəkəyə fiziki qoşulma yeri;

**Tarif Şurasının qərarına uyğun ödənilən məbləğə görə göstərilən xidmət:**

- layihələndirilmə;
- tikinti-quraşdırma işləri;
- mövcud şəbəkəyə Müəssisə tərəfindən fiziki qoşulma.

## Qoşulma müqaviləsi:

- tikinti obyektlərinin şəbəkəyə qoşulması şərtlərini özündə əks etdirən sənəd;

## Texnoloji qoşulma:

- qoşulma nöqtəsinədək yeni xətlərin layihələndirilməsi və inşası;
- əlavə tələbatla bağlı layihə sənədlərinin hazırlanması və tikinti-quraşdırma işlərinin görülməsi;
- şəbəkəyə fiziki qoşulma;
- yeni su kəmərləri və qurğularının yuyulması və zərərsizləşdirilməsi;
- sifarişçi ilə Müəssisə arasında qoşulma aktının tərtib edilməsi;

## Fiziki qoşulma:

- yeni çəkilmiş xətlərin Müəssisənin təyin etdiyi qoşulma nöqtəsinə birləşdirilməsi;

## Qoşulma aktı:

- tikinti obyektinin Müəssisə tərəfindən şəbəkəyə fiziki qoşulmasını təsdiq edən sənəd;

## Kommunal Xidmətlərin Vahid İnformasiya Sisteminin fəaliyyəti:

- zəruri məlumatlar toplanılır;
- emal olunur;
- informasiya sistemləri və ehtiyatlarının inteqrasiyası həyata keçirilir;
- monitorinqlər, analitik təhlillər aparılır;
- proqnozlar hazırlanır,
- mərkəzləşdirilmiş elektron xidmətlər göstərilir.

## Məişət abonenti:

- Yaşayış evlərində, mənzillərdə, xüsusi təyinatlı yaşayış sahələrində, bağlarda həmçinin məişət ehtiyacları üçün su təchizatı və tullantı sularının axıdılması xidmətlərindən istifadə edən fiziki şəxs; (https://e-qanun.az/framework/46955)

## İnvestisiya proqramı:

- Su təchizatı, tullantı sularının axıdılması sisteminin tikintisi, yenidən qurulması qanunla qadağan edilməyən mənbələr (sifarişçinin vəsaiti istisna olmaqla) hesabına həyata keçirilən fəaliyyət.

## Məişət abonentləri üçün tələb olunan sənədlər:

- sifarişçinin adı, soyadı, atasının adı, şəxsiyyətini təsdiq edən sənədin FİN-i, telefon nömrəsi, poçt və elektron ünvanı.
- torpaq sahəsinin ünvanı.
- mülkiyyət və digər əşya hüquqlarına dair hüquqmüəyyənedici sənəd barədə məlumatlar.

**Qeyd:** Məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda sənədin surəti təqdim edilir.

## Qeyri-yaşayış təyinatlı tikinti obyektlərindən tələb olunan sənədlər:

- sifarişçinin adı, hüquqi ünvanı və VÖEN-i, sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs olduqda adı, ünvanı və VÖEN-i.
- tikinti obyektinin yerləşdiyi yaxud yerləşəcəyi torpaq sahəsinin ünvanı.
- mülkiyyət və digər əşya hüquqlarına dair daşınmaz əmlakın dövlət reyestr və qeydiyyat nömrələri.
- suya olan tələbatı, axıdılacaq tullantı sularının həcmi.
- telefon nömrəsi, poçt və elektron poçt ünvanı.

**Qeyd:** Məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda sənədin surəti təqdim edilir.

“İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 31-ci maddəsinə uyğun olaraq, ərizə və əlavə olunmuş sənədlər qəbul edildikdən sonra dərhal elektron sistemə daxil edilir. (https://e-qanun.az/framework/11254)

## MÜRACİƏTİN ANINDA QƏBUL İMKANI

ASAN Xidmət və Kommunal Mərkəzləri

KOB evləri

«E-su» portalı

Elektron hökumət portalı

## QEYD

- məlumatlar həmin gün qeydiyyata alınmış hesab olunur;
- məlumatlar sifarişçinin müraciət etdiyi gün yoxlanılır;
- sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, aradan qaldırılmasının zəruriliyi barədə məlumat 1 iş günü müddətində sifarişçiyə SMS, elektron sistem, xidmət nöqtələri, yaxud sifarişli poçt göndərişi vasitəsilə bildirilir və formal tələblərə əməl olunmamasının hüquqi nəticələri ona izah edilir;
- sifarişçi həmin çatışmazlıqları məlumatı aldığı tarixdən ən geci 10 (on) gün müddətində aradan qaldırır, Bu zaman qoşulma üçün nəzərdə tutulan müddət

  axımı 30 günü keçməmək şərtilə dayandırılır;
- sifarişçi müraciətindən sonra müddətin axımı bərpa olunur;
- sifarişçi sənədlərdə aşkar olunmuş çatışmazlıqları 10 gün müddətdə aradan qaldırmadıqda, müraciətin baxılmamış saxlanılır və bu barədə məlumat  2 gün müddətində sifarişçiyə bildirilir;
- məlumatların uyğunluğu təsdiqləndikdən sonra texniki şərtlərin hazırlanmasına başlanılır, ən geci 10 gün müddətində həyata keçirilir;

## TİKİNTİ OBYEKTİNİN ŞƏBƏKƏYƏ QOŞULMASI PROSESİ

### Tikinti obyektinin şəbəkəyə qoşulması

Tikinti obyektinin şəbəkəyə qoşulması onun müraciət etdiyi tarixdən aşağıda göstərilən **üç mərhələdən ibarət olmaqla**, 30 (otuz) gündən gec olmayaraq təmin edilməlidir:

1. **Texniki şərtlərin hazırlanması** — 10 gün
2. **Layihə sənədlərinin hazırlanması** — 10 gün
3. **Tikinti-quraşdırma işlərinin həyata keçirilməsi** — 10 gün

## BİLDİRİŞİN GÖNDƏRİLMƏSİ

**Qoşulma üçün müraciətlər icra olunan zaman hər bir prosedur üzrə sifarişçiyəavtomatik məlumat bildirilməsi**

(Şəxsi kabinet, sms bildiriş, elektron poçt ünvanı)

SMS

E-mail

## MÜQAVİLƏLƏR

**Qoşulma müqaviləsi**

**Sayğac quraşdırma müqaviləsi;**

**Hesab Fakturalar**

## ÖDƏNİŞ ETMƏK İMKANI

Qoşulma ilə bağlı **"ASAN Xidmət"** və **"ASAN Kommunal"** mərkəzlərində müvafiq "Texniki şərt" hazırlanan müddət ərzində istehlakçılar üçün ödəniş müqaviləsi bağlanılaraq anında ödəniş etmək imkanın yaradılması

## Qoşulma xidmətinə görə ödəniş:

**Qoşulma xidmətinə görə ödəniş Azərbaycan Respublikası Tarif Şurası tərəfindən müəyyən olunmuş tariflər əsasında həyata keçirilir.**

- texniki şərtlər və qoşulma xidmətinə görə ödəniş hesablanır, müqavilə hazırlanır və elektron sistemə yerləşdirilir;
- qoşulma müqaviləsinin bağlanılması zərurəti və qoşulma xidmətinə görə ödənişin həyata keçirilməsi ilə bağlı sifarişçiyə onun müraciət üsuluna uyğun olaraq müvafiq məlumatlar təqdim edilir;
- sifarişçi qoşulma müqaviləsini Sistem vasitəsilə və ya xidmət nöqtələrindəki Müəssisənin nümayəndələrinə müraciət edərək imzalayır;
- müqavilə bağlanıldıqdan sonra sifarişçi ödənişi Sistem, yaxud ona verilən unikal kod vasitəsilə terminaldan Müəssisənin bank hesabına köçürür;
- vəsaitin köçürülməsini təsdiq edən sənəd barədə məlumatların elektron sistemə daxil edilməsi məqsədilə xidmət nöqtələrindəki Müəssisələrin nümayəndələrinə təqdim edir;
- ödəniş 3 gün müddətində təmin edilmədikdə, sifarişçi müraciətini geri götürmüş hesab olunur;
- bu barədə sifarişçiyə müvafiq məlumat verilir;
- sifarişçi tikinti obyektinin şəbəkəyə qoşulması ilə bağlı, yenidən müraciət etmək hüququna malikdir;
- müqavilə bağlanıldıqdan və ödəniş həyata keçirildikdən sonra texniki şərtlər elektron sistemdə yerləşdirilir və ya təqdim edilir;
- Tarif Şurasının qərarı ilə təsdiq edilmiş qoşulma xidmətinə görə ödənişdən əlavə sifarişçilərdən heç bir ödəniş tələb edilmir.